*Azərbaycanın böyük gələcəyi var. Gələcək nəsillər haqqında düşünməliyik. Azərbaycanın gəncləri, gənc nəsli, milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 27 yanvar 2016-cı il | № 7 (2022) | Qiyməti 25 qəpik


*2 Fevral - Gənclər Günüdür*

# Gələcəyimizə sahib olan avanqard qüvvə

## Gənclərdən ibarət Silahlı Qüvvələrimiz bu gün ən önəmli fəaliyyətlə - dövlətin təhlükəsizliyini təmin etməklə məşğuldurlar

***Adətən gənclikdən söz düşəndə onu cəmiyyətin avanqard dəstəsi hesab edirlər. Əslində sabahkı inkişafımızın taleyi bugünkü gəncliyimizin əlindədir. Bütün dövrlərdə Azərbaycan gəncliyi ölkəmizin həyatında müstəsna rol oynayıb. İstər tarixi müstəqilliyimizin bərpa edilməsi uğrunda ötən əsrin sonlarında başlanan xalq hərəkatında, istərsə də Vətənimizin işğalçılardan qorunması naminə mübarizədə gənclərimizi daim ön sıralarda görməyə vərdiş etmişik.***

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

***Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir.***



Müstəqil Azərbaycan dövlətçiliyinin formalaşmasında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyev siyasi hakimiyyətinin bütün dövrlərində gənclərə cəmiyyətin aparıcı qüvvəsi kimi inanıb və onların düzgün təşkilatlanması üçün dəstəyini əsirgəməyib. "Bu gün Azərbaycan gəncləri xoşbəxtdirlər ki, müstəqil Vətənimizdə yaşayırlar",- deyən ümummilli liderimizin təşəbbüsü ilə 1996-cı ildə keçirilmiş ölkə gənclərinin ilk ümumrespublika forumu cəmiyyətimizdə bu vacib qüvvənin təşkilatlandırılması istiqamətində mühüm addım olub. Təcrübəli lider yaxşı bilirdi ki, gənclərin vahid təşkilat formasında birləşməsinə nail olmadan bütövlükdə ictimai-siyasi həyatımızı inkişaf etdirmək və taleyüklü problemləri həll etmək mümkün olmayacaq. Məhz dahi rəhbərin siyasi uzaqgörənliyinin nəticəsi olaraq 1997-ci il fevralın 2-si Azərbaycanda Gənclər Günü elan olundu və həmin vaxtdan etibarən hər il xalqımız bu günü əlamətdar hadisə kimi qeyd edir. Həmçinin, gənclərin ölkənin idarəetmə sisteminə inteqrasiyasını təmin etmək məqsədilə yeni bir təşkilat - Gənclər və İdman Nazirliyi də müdrik rəhbərin xeyir-duası ilə yaradıldı. Bu addım isə sonrakı dövrlərdə belə vacib dövlət qurumunun gənclərin təşkilatlanmasında xüsusi rolunu büruzə verdi, yəni, doğrudan da, bu təşkilatın yaradılması həyati əhəmiyyətli bir məsələ idi.

Yuxarıda qeyd olunduğu kimi, ötən əsrin 90-cı illərində yenidən bərpa etdiyimiz tarixi müstəqilliyimizin qorunub saxlanmasında Azərbaycan gəncləri, sözün həqiqi mənasında, əhəmiyyətli rol oynadılar. Yüzlərlə, minlərlə gəncimiz məhz düşmənlə mübarizədə qəhrəmanlıq və fədakarlıq nümayiş etdirərək, Vətənə qırılmaz tellərlə bağlı olduqlarını sübuta yetirdi. Böyük öndərimiz əbəs yerə demirdi ki, gənclərin qarşısında dayanan ən məsuliyyətli vəzifələrdən biri Vətənimizin qorunmasını təmin etməkdir. Müharibə dövrünün şahidi olanlara yaxşı məlumdur ki, dahi rəhbərin bir çağırışı ilə on minlərlə gəncimiz torpaqlarımızın müdafiəsinə qalxdı və yağı düşmənlə son damla qanına kimi döyüşməkdən çəkinmədi. "Vətən uğrunda", "Heydər Əliyev uğrunda" şüarları altında məğrur gənclərimiz cəbhənin müxtəlif istiqamətlərində mətinliklə döyüşərək, erməni silahlı qüvvələrinin hərbi təcavüzünün qarşısının alınmasına nail oldular. Məhz həmin illərdə formalaşan mübariz Azərbaycan gəncliyi ümummilli liderimizin ideyalarından ruhlanaraq Vətənə, dövlətə və xalqa əsl sədaqətlərini sübut edirdi. Müharibə dövründə ön cəbhədə xidmət etmiş zabitlər indi də söhbətlərində qeyd edirlər ki, böyük rəhbərimizin birbaşa düşmənlə təmas xəttinə hər səfəri gənc döyüşçülərin mübarizə əzmini qat-qat artırırdı. Bəli, Heydər Əliyev müdrik sərkərdə qətiyyəti ilə qızğın döyüşlər gedən bölgələrdə olurdu, onun vacib məsləhət və tövsiyələri Azərbaycan Ordusunun böyük əksəriyyətini təşkil edən gənclərə tükənməz vətənpərvərlik hissləri aşılayırdı.

Müasir dövrümüzdə də dahi rəhbərin qoyub getdiyi siyasi kurs onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Onun 2003-cü ildən başlanan siyasi hakimiyyətinin bütün mərhələlərində gənclərə diqqət və qayğı, cəmiyyətdə və dövlət idarəetmə sistemində onlara etimad göstərilməsi Prezidentin siyasi kursunun mühüm istiqamətlərindəndir. Əslində Azərbaycanın dövlət rəhbərliyi uğurlu gənclər siyasətini həyata keçirməklə cəmiyyətin bu aparıcı qüvvəsini daha da ruhlandırır, onlara qol-qanad verir və qurub yaratmaq əzmi aşılayırdı.

Qısa vaxt ərzində respublikamızda böyük idman hərəkatına start verildi, bacarıqlı idmançı gənclərimiz öz qüvvələrini mühüm beynəlxalq idman tədbirlərində sınaqdan keçirərək, üçrəngli bayrağımızı başları üzərində dalğalandırırlar. Bu səhnələri sakit izləmək olmur. Ölkəmizin hüdudlarından çox-çox uzaqlarda bayraqlar arasında üçrəngli bayrağımızın ucalması, Dövlət himnləri sırasında himnimizin səsləndirilməsi, doğrudan da, hər bir vətəndaşımıza sonsuz qürur hissləri aşılayır. Bu səhnələri izlədikcə, damarlarımızda axan qanımız coşur və ulu öndərimizin, "Mən Azərbaycanlıyam" kəlməsi duyğularımızı riqqətə gətirir. 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları və burada idmançılarımızın möhtəşəm uğurlara imza atması, Azərbaycanımızın Dövlət himninin dəfələrlə səsləndirilməsi, bayrağımızın ucaldılması ilə neçə dövlətin idman ictimaiyyəti nümayəndələrinin və əcnəbi qonaqlarımızın ayağa qalxması əslində dövlət rəhbərliyinin, şəxsən Prezidentimizin ölkədə gənclərə göstərdiyi böyük diqqət və qayğının parlaq təzahürü idi. Bu yarışların açılışını bildirən məşəlin sağlamlığını torpaqlarımızın qorunması uğrunda mübarizədə itirmiş birinci qrup Qarabağ müharibəsi əlili İlham Zəkiyevin əlində zala gətirilməsi, sözün həqiqi mənasında, dövlət başçımız tərəfindən düşmənə ünvanlanan güclü bir mesaj idi. Ali Baş Komandanımız bununla bütün dünyaya bəyan etdi ki, müstəqil Azərbaycanın ərazi bütövlüyü uğrunda hər bir azərbaycanlı savaşa atılmağa tam hazırdır.

Doğrudan da, bu gün Silahlı Qüvvələrimizin sıralarında xidmət edən minlərlə gəncimizin timsalında mübariz döyüşçü nəsli formalaşıb. Gənc hərbi qulluqçularımız Vətəni qorumağın sirlərinə dərindən yiyələnməklə, Müdafiə nazirimizin qeyd etdiyi kimi, "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizini özlərinin həyat amalına çevirirlər. Məhz belə vətənpərvər Azərbaycan gəncliyi gələcəyimizin etibarlı avanqard qüvvəsidir.

**"Azərbaycan Ordusu"**

## MDB terror təhlükələrinə qarşı mübarizə səylərini fəallaşdırır

Yanvarın 27-28-də Minskdə, MDB İcraiyyə Komitəsində terrorizmə və ekstremizmin digər zorakılıq hallarına, habelə onların maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində informasiya mübadiləsi haqqında sazişin layihəsinin razılaşdırılmasına dair ekspert qrupunun iclası keçiriləcək. Bu barədə AZƏRTAC-a MDB-nin Minskdəki mənzil-qərargahının mətbuat xidmətindən məlumat veriblər.

Sənəd bu sahədə dövlətlərarası əməkdaşlığı daha da möhkəmləndirmək, onun səmərəliliyini artırmaq məqsədi ilə hazırlanıb.

Sazişin müddəaları ilə təmənnasız informasiya mübadiləsi, informasiya sistemlərinin, o cümlədən dövlətlərarası informasiya sistemlərinin hüquqi rejiminin yerinə yetirilməsinin təmin olunması, habelə məxfi məlumatın müvafiq müdafiəsi nəzərdə tutulur.

İnformasiya mübadiləsi səlahiyyətli orqanlar tərəfindən həyata keçiriləcək.

Gözlənildiyinə görə, MDB-nin iştirakçısı olan dövlətlərin Antiterror Mərkəzinin İxtisaslaşdırılmış Maliyyə Bankı (ATM İMB) terrorizmə və ekstremizmin digər zorakılıq təzahürlərinə, habelə onların maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində dövlətlərarası informasiya sistemi olacaq.

MDB ATM İMB-nin təşkili, istismarı və fəaliyyəti üzrə tədbirlərin əlaqələndirilməsi və zəruri məsləhətləşmələrin (danışıqların) keçirilməsi MDB ATM-yə həvalə ediləcək. Məhz MDB ATM Birliyin informasiya sistemlərinin təşkilinə və istifadəsinə məsul olan səlahiyyətli orqanlar və Birlik orqanları ilə birbaşa əlaqələr yaradacaq.

## “Minsk Qrupunun həmsədrlərinin danışıqlar prosesinin inhisarçısı qismində çıxış etməyə heç bir əsası yoxdur”

***ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki vəziyyət ilə əlaqədar Avropa Şurası Parlament Assambleyasının (AŞPA) müvafiq komitələrinin hazırladığı hesabatları və AŞPA-nın qış sessiyasında qəbul edilməsi gözlənilən qətnamələrinə dair mövqeyi ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin münasibəti 2015-ci il 10 noyabr tarixli bəyanatda ifadə olunub. Bu il 22 yanvar tarixli açıqlaması ilə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin münaqişənin həllinə töhfə vermək niyyətində olan digər beynəlxalq təşkilatın fəaliyyətinə və həmçinin ciddi narahatlıq doğuran məsələ ilə əlaqədar beynəlxalq təsisata müraciət etmiş dövlətin suveren hüquqlarına müdaxiləsi Minsk Qrupunun həmsədrlərinin vasitəçilik səylərinin dürüstlüyünü, onlara olan inam və etimadı sual altına qoyur.***

Bu fikirləri AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

O deyib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurası tərəfindən verilən mandatı hələ də doğrultmayıb və 20 ildən artıq bir dövr ərzində münaqişənin həllində heç bir irəliləyiş əldə olunmayıb. Belə ki, Azərbaycan Respublikasının ərazilərinin Ermənistan tərəfindən hərbi işğalı davam edir, qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması mümkün olmayıb. Bunun da əsas səbəbi ATƏT-in Minsk Qrupunun Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etməsinə münasibətdə nümayiş etdirdiyi barışdırıcı mövqeyidir.

ATƏT-in Minsk Qrupunun həmsədrlərinin danışıqlar prosesinin inhisarçısı qismində çıxış etməyə heç bir əsası yoxdur. Mandatına uyğun olaraq, ATƏT Minsk Qrupunun həmsədrləri münaqişənin həlli prosesində BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993), 884 (1993) saylı qətnamələrinin tələblərini, eləcə də digər beynəlxalq təsisatların sənədlərini nəzərə almalıdırlar.

Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət ilə əlaqədar Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının gündəliyinə çıxarılacaq qətnamələrə münasibətdə Ermənistanın təşviş içərisində olması rəsmi Yerevanın münaqişənin həllinə dair beynəlxalq ictimaiyyətin ədalətli və haqlı mövqeyindən nə dərəcədə qorxmasının daha bir göstəricisidir. Bu hal bir daha sübut edir ki, Ermənistanın məqsədi ATƏT Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqların davam etməsi imitasiyasının yaradılması ilə işğal və təcavüzə əsaslanan mövcud status-kvonun saxlanmasından ibarətdir.

Azərbaycan Respublikası beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının nəticələrinin aradan qaldırılması və regionda davamlı sülh və sabitliyin bərpa olunması istiqamətində bütün beynəlxalq təsisatların xoşməramlı fəaliyyətini və töhfəsini təqdir edir. Azərbaycan bu istiqamətdə bütün müqabil beynəlxalq təşkilatlarda fəaliyyətini davam etdirəcəkdir.

# Qarşıda duran vəzifələr müzakirə olunub

## Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin toplantısı keçirilib



***Silahlı Qüvvələrin gücü, qüdrəti hər şeydən öncə şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsindən asılıdır. Son vaxtlar aparılan islahatlar, görülən tədbirlər nəticəsində ordumuz Cənubi Qafqazda ən güclü orduya çevrilib. İndi tam əminliklə deyə bilərik ki, Silahlı Qüvvələrimiz torpaqlarımızı işğaldan azad etməyə qadirdir.***

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, bu günlərdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığını elmi-metodiki əsaslarla daha da yüksəltmək məqsədilə birləşmə, birlik və hərbi hissə komandirlərinin, xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinlərinin toplantısı keçirilib.

Dövlət himninin səsləndirilməsindən sonra Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev geniş məruzə ilə çıxış edib.

Silahlı Qüvvələrimizdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığı işinin təşkili ilə bağlı fikirlərini bildirən idarə rəisi Müdafiə nazirinin daim bu sahəyə ciddi diqqət yetirdiyini qeyd edib. Bu işin təşkilində manqa komandirlərinin hazırlığına daha ciddi diqqət yetirilməsi zərurətini diqqətə çatdırıb. Mənəvi-psixoloji hazırlığın orduda döyüş hazırlığının vacib tərkib hissəsi olduğunu və bu səbəbdən də yeni metodlarla işləməyin tələb edildiyini toplantı işçilərinə bir daha xatırladıb.

General-mayor Rasim Əliyev toplantı iştirakçılarına təlim-metodiki işin təşkili istiqamətində dəyərli məsləhətlər verib.

Natiq sonra hərbi vətənpərvərlik duyğularının daha da möhkəmləndirilməsində örnək hesab edilən tədbirlərin mahiyyətindən danışaraq qeyd etdi ki, general-mayor Dadaş Rzayevin 80 illik yubileyi gənc zabitlərin mənəvi-psixoloji hazırlığında mühüm əhəmiyyətə malikdir. Zabitlərin qarşıda duran vəzifələri uğurla yerinə yetirməsi üçün belə tədbirlərin daha işgüzar şəraitdə keçirilməsi vacibdir. Silahlı Qüvvələrimizin şəxsi heyətinin hərbi intizama daha ciddi riayət etməsi ordunun döyüş qabiliyyətinin möhkəmlənməsində ən vacib amillərdəndir. Buna görə də hərbi xidmət məhz bu amil əsasında qurulmalıdır.



Natiq döyüş itkilərinə səbəb olan amillərin ciddi araşdırılmasının, aradan qaldırılması yollarının müəyyən edilməsinin zəruriliyinə də toxunaraq, insan amilini həmişə diqqətdə saxlamağın önəmli olduğunu da qeyd etdi.

İdarə rəisinin müavini polkovnik Abdulla Qurbani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 yanvar 2016-cı il tarixli sərəncamına əsasən, 2016-cı ilin multikulturalizm ili elan edildiyini, multikulturalizmin tolerantlıqla sıx bağlı olduğunu, milli assimilyasiyanı inkar edən inteqrasiyaya yol açdığını bildirib və bu istiqamətdə Silahlı Qüvvələrin üzərinə düşən vəzifələrdən ətraflı söhbət açıb.

Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev toplantı iştirakçılarını salamlayaraq qarşıda duran vəzifələri zabitlərin nəzərinə çatdırıb.

Toplantıda çıxış edən Respublikanın Hərbi prokuroru general-leytenant Xanlar Vəliyev dünyada baş verən qlobal hadisələrdən vizual söz açaraq hərbi cinayətlərdən, bu cinayətlərin təsnifatından, onların törədilməsinə səbəb ola bilən amillərdən və həyata keçirilən hüquqi profilaktik tədbirlərdən danışıb.

General-leytenant Xanlar Vəliyev toplantı iştirakçılarının suallarını cavablandırıb.

Təlim-metodiki toplantı öz işini davam etdirir.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun xatirəsinə həsr olunan hərbi vətənpərvərlik həftəsi başa çatıb

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunan hərbi vətənpərvərlik həftəsi yekunlaşıb.***



Nəinki Azərbaycan xalqının, eləcə də keçmiş Sovetlər İttifaqının görkəmli hərbi xadimlərindən olan general-mayor Həzi Aslanovun şərəfli ömür yolu və qəhrəmanlığı gənclərin vətənpərvərlik tərbiyəsində həmişə örnək olub. Bu gün də gənclərimiz görkəmli sərkərdə Həzi Aslanovun nümunəsi əsasında Vətənə, xalqa, dövlətə sadiq vətəndaşlar kimi yetişirlər.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Həzi Aslanovu Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisi kimi qiymətləndirər və deyərdi ki, o, döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmişdir. General Həzi Aslanov Azərbaycan xalqının hansı yüksək mənəvi xüsusiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir. Vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinədək döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır.

Hər il ölkəmizdə 9 May - Qələbə Günü tədbirləri dövlətimizin başçısının, respublikanın hökumət və dövlət nümayəndələrinin, veteranların general-mayor Həzi Aslanovun abidəsini ziyarət etməsi ilə başlanır. Böyük sərkərdənin xatirəsinə həsr olunan silsilə tədbirlər həyata keçirilir. Bu il də Silahlı Qüvvələrdə xalqımızın igid oğlunun ad günü və həlak olmasının ildönümü biri-birindən maraqlı tədbirlərlə qeyd edilib. Qəhrəmanın Şəhidlər xiyabanındakı abidəsi ziyarət olunaraq önünə Müdafiə Nazirliyi adından əklil qoyulub, xatirəsi ehtiramla anılıb.

Birlik, birləşmə və hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində keçirilən görüşlərdə, bədii və sənədli filmlərin nümayişində, "dəyirmi masa"larda, xatirə gecələrində və digər tədbirlərdə yüzlərlə hərbi qulluqçu, veteran və ictimaiyyətin nümayəndələri iştirak edib.

Murovdağ döyüşçüləri, Gədəbəy müdafiəçiləri qəhrəmanın şərəfli həyat və döyüş yoluna həsr olunmuş kitabların təqdimatına qatılıblar.

Cəbhə bölgəsində xidmət edən ən yaxşı tank heyətlərinin iştirakı ilə keçirilən tədbirdə müstəqil Azərbaycanın tankçıları - Həzi Aslanovun davamçıları and içiblər ki, respublikamızın ərazi bütövlüyünü təmin etmək, işğal altındakı torpaqlarımızın azad olunması uğrunda döyüşlərə hər an hazırdırlar. Xalqımız əmin ola bilər ki, onlar döyüş meydanında general Həzi Aslanovun qəhrəmanlıqlarını təkrarlamağa hazır və qadirdirlər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Yanvarın 24-dən 29-dək Kişineu şəhərində (Moldova) Əməliyyat İmkanları Konsepsiyası proqramı üzrə NATO qiymətləndirilməsi üçün məsləhətçi görüşü, yanvarın 25-dən 30-dək isə Sarayevo şəhərində (Bosniya və Herseqovina) NATO-nun regional kollektiv təlimi planlaşdırma konfransı keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edəcəklər.

### Bakıda NATO-nun təlim kursu başlayıb

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2016-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, yanvarın 26-dan Bakıda Müttəfiq Dəniz Qüvvələrinin Qərargah rəisi vitse-admiral Corco Latsionun rəhbərlik etdiyi Mobil Təlim Qrupu tərəfindən "Hərbi Dəniz Qüvvələri standartları" mövzusunda təlim kursu başlayıb.

Kurs müddətində iştirakçılara "Hərbi Dəniz Qüvvələrinin fəaliyyət istiqamətləri", "Əməliyyat İmkanları Konsepsiyası Proqramının elektron məlumat bazası", "NATO Hərbi Dəniz Qüvvələri standartlarına müvafiq sənədlərlə tanışlıq", "Sertifikatlaşdırma prosesi", "Təlimin planlaşdırılması" və s. mövzular üzrə məruzələr təqdim olunacaq.

Vitse-admiral C.Latsionun rəhbərlik etdiyi nümayəndə heyəti bu gün Hərbi Dəniz Qüvvələrinin yeni bazasında və Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində görüşlər keçirib.

Təlim kursu yanvarın 28-dək davam edəcəkdir.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 117 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Qızılhacılı kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Çaylı, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 119 dəfə atəş zərbəsi endirib.

***26 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 113 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan, Şavarşavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Quşçu Ayrım, Fərəhli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Ağdam rayonunun Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Mərzili, Şıxlar, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 114 dəfə atəş zərbəsi endirib.

# Qoşunların təmas xəttində monitorinq keçirilib




ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 26-da Tovuz rayonunun Əlibəyli kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Peter Svedberq keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Jiri Aberle və Saymon Tiller keçiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Odundağ yüksəkliyi bölmələrimiz tərəfindən nəzarətə götürülüb"

***Bəzi elektron kütləvi informasiya vasitələrində Ermənistandakı mənbələrə istinadla Azərbaycanın Qazax rayonu ilə Ermənistanın Noyemberyan yaşayış məntəqəsi arasındakı ərazidə yerləşən Odundağ yüksəkliyinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi və ətraf erməni ərazilərinin asanlıqla müşahidə edilməsi barədə məlumat yayılıb.***

AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən faktı təsdiq edərək bildiriblər ki, həqiqətən, həmin yüksəklik əlverişli və əhəmiyyətli olduğu üçün bölmələrimiz tərəfindən nəzarətə götürülüb, taktiki və mühəndis-istehkam baxımından gücləndirilib.

*Ön xətdən reportaj*

# "Vətəni qorumaqdan şərəf duyuram"

***Başımızın üstündəki səma tərtəmiz və gömgöydür. Hava günəşli olsa da, isti deyil. Qış günlərində günəş elə bil bir az yorğun görsənir. Ətrafa dərin sükut çöküb. Torpaq qış yuxusuna gedib. Oyaq qalanlar isə yalnız bu yerlərə keşik çəkən zabit və əsgərlərdir.***



Cəbhə bölgəsindəyik. Səngərləri gəzir, mövqelərə baş çəkib zabit və əsgərlərlə görüşürük. Onların ürək sözlərini dinləyir, maraqlı söhbətlərini qələmə alırıq.

Budur, dərin qazılmış səngərlə ön xətdə yurdumuza keşik çəkən döyüşçülərin yanına tələsirik. Səngər dərin olduğundan hərəkət etmək də təhlükəsizdir. Bölük komandiri baş leytenant İlqar Hacıyev bizdən bir neçə metr qabaqda gedir. Bu yerlərin hər qarışına yaxşı bələd olduğundan zabit heç ayağının altına baxmadan iti addımlarla irəliləyir. Hər yer ona çox tanışdır. Hiss edirəm ki, torpaq da, səngər də öz müdafiəçilərini yaxşı tanıyır.

İlqar dilli-dilavər, üz-gözündən təbəssüm yağan bir zabitdir. Elə iti addımladığı kimi, iti-iti də danışır. Səsi də çox ötkəmdir, əsl komandir səsidir. Cəbhə bölgəsində xidmət etdiyi xeyli müddətdir. Ona görə də kifayət qədər təcrübə və səriştəsi var. Qartal kimi iti baxışlarından heç nə yayınmır.

Söhbət edə-edə ön xəttə gəlib çatırıq. Əsgərlərdən biri nizami qaydada irəli yeriyib bizi qarşılayır. Gün ərzində heç bir hadisə baş vermədiyini, daim düşmən mövqelərinə nəzarət etdiklərini bildirir. Müşahidə məntəqəsindən bir anlıq qarşı tərəfə baxırıq. Uzaqdan Ağdam rayonunun uçurulub-dağıdılmış evlərinin, binalarının qalıqları görsənir. Qulaqlarımızda Qədir Rüstəmovun "Sona bülbülləri" sanki haray çəkib fəryad qoparır.

Ərazidə bir az müşahidə apardıqdan sonra ön mövqedə dayanmış əsgərlərlə söhbət edirəm. Natiq İbrahimov ordu sıralarına Göyçaydan çağırılıb. Xidmətinin başa çatmasına bir neçə ay qalıb.

- Vətəni qorumaqdan şərəf duyuram, - deyir əsgər. - Biz dünyaya bu torpağın üstündə göz açmışıq. Ona görə də bu yurdu, dədə-baba ocaqlarını qorumaq müqəddəs borcumuzdur. Qardaşlarım Namiq də, Ramiz də əsgəri xidmətlərini ön xətdə yerləşən hərbi hissələrimizdə yerinə yetiriblər. İndi səngərdə onları mən əvəz edirəm. Ailəmizdən üçüncü əsgərəm. Silahların sirlərinə dərindən yiyələndiyimə görə hədəfləri dəqiq vururam. Dünən erməni işğalçıları atəşkəs rejimini pozmağa cəhd göstərdilər. Qısa bir zamanda düşməni susdurduq. Ermənilərin bütün cəhdlərinin qarşısını qətiyyətlə alırıq. Düşmənlə üz-üzə dayanmaq cəsur və diqqətli olmağı tələb edir. Xalqımız yurdumuzu qorumağı bu gün bizə tapşırıb. Buna görə də biz yurdumuzu həmişə göz bəbəyimiz kimi qoruyacağıq.

Səngərlərdə dayanan əsgərlərlə söhbətimdən hiss edirəm ki, ürəklərində qələbə ovqatı dolaşır. Onların timsalında güclü, qüdrətli Azərbaycan əsgərini görürəm.

Yurdumuzu qoruyan əsgərlərdən xoş təəssüratlarla ayrılıb qarşıdakı mövqelərə tələsirik. Ətrafdakı gözəlliyi seyr edə-edə irəli gedirik. Səngərlə irəli addımladıqca dövrümüzün görkəmli şairi Nəriman Həsənzadənin misraları yadıma düşür:

...Babamın yadigar
bir duası var;
Səngər nəyə gərək
döyüş olmasa.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə şəxsi heyəti cəbhəyə yola salınan hərbi hissənin yaranma günü qeyd edilib



***1994-cü il yanvarın 24-də yeni komplektləşdirilmiş hərbi hissənin şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin xeyir-duası ilə cəbhəyə yola salınmışdır.***

Yolasalma mərasimində xalqımızın ümummilli lideri şəxsi heyətlə görüşmüş, onların qarşısında çıxış edərək Vətən əsgərlərinə uğurlu yol arzulamışdır. Bu gün də hərbi hissənin şəxsi heyəti unudulmaz Heydər Əliyevin dediklərini öz fəaliyyətlərində əsas tutaraq, Vətən, xalq, dövlət qarşısında əsgəri borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər.

"Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz və indi cəbhəyə yola düşürsünüz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi Qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır. Ona görə də hər birinizə, ümumiyyətlə, hamınıza bu şərəfli vəzifənizi - Vətəni müdafiə etmək vəzifənizi yerinə yetirməklə qəhrəmanlıq nümunələri göstərməyinizi arzulayıram".

Heydər Əliyevin xeyir-duası ilə cəbhə bölgəsinə yola düşən hərbi hissənin şəxsi heyəti Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin işğaldan azad edilməsində, Murovdağ uğrunda döyüşlərdə Silahlı Qüvvələrimizin tarixinə şanlı səhifələr yazdı. Neçə-neçə əsgər və zabit şəhidlik zirvəsinə ucaldı. Onlarla döyüşçü müstəqil respublikamızın orden və medalları ilə təltif olundu.

Artıq 22 ildir ki, hərbi hissənin şəxsi heyəti Murovdağ bölgəsinin müdafiəsində dayanıb və ulu öndərin cəbhəyə yola saldığı hərbi hissədə Vətənə xidmətdən böyük qürur duyur.



Hərbi hissənin yaranmasının 22-ci ildönümü münasibətilə keçirilən tədbirin iştirakçıları əvvəlcə Murovdağ döyüşçülərinin şərəfinə ucaldılmış xatirə abidəsini ziyarət edərək önünə çələng və tər qərənfillər qoymuşlar.

Əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Rafiq Hacıyevin rəhbərlik etdiyi hərbi orkestr görkəmli bəstəkar, xalq artisti Oqtay Kazıminin "Murovdağ nəğmələri" rekviyem-poemasını ifa edib. Ulu öndərin və şəhidlərimizin xatirəsi hörmət və ehtiramla yad olunub.

Sonra tədbirlər tabor və bölüklərdə davam etdirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriki şəxsi heyətə çatdırılıb, hərbi hissənin keçdiyi şərəfli döyüş yolu barədə məruzə və xatirələr dinlənilib. Fərqlənən hərbi qulluqçulara fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Hərbi hissənin ilk döyüşçülərindən olan polkovnik Abdulla Qurbaninin, Milli Məclisin deputatı, professor Xanhüseyn Kazımlının çıxışları da maraqla qarşılanıb.

Göygöl rayon Mədəniyyət və Turizm şöbəsinin bədii özfəaliyyət kollektivi hərbçilərə musiqi sovqatı bəxş edib.

Murovdağda ön səngərdə keçirilən tədbir zamanı professor X.Kazımlı bir qrup döyüşçünü qiymətli hədiyyə ilə mükafatlandırıb, xalqımızı tezliklə Qələbə müjdəsi ilə sevindirəcəklərinə əminliyini bildirib.

Şəxsi heyət göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirib. Onlar torpaqlarımızı işğaldan azad etmək üçün hər bir əmrə hər an hazır və qadir olduqlarını bəyan ediblər.



**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Şəxsi heyətin kənardan xəstəliklərə yoluxmasının qarşısını almaq məqsədilə ciddi qabaqlayıcı tədbirlər görülür

## Bu günədək şəxsi heyətin sağlamlığı ilə bağlı heç bir ciddi narahatçılıq qeydə alınmayıb

***Mövsümi kəskin respirator xəstəliklərin yayılması ehtimalını nəzərə alaraq, eləcə də hərbi hissələrin şəxsi heyətinin kənardan bu kimi xəstəliklərə yoluxmasının qarşısını almaq məqsədilə Müdafiə nazirinin əmrinə əsasən, qabaqlayıcı tədbirlər görülür.***

Bütün şəxsi heyət yüksək kalorili ərzaq payı, yarıvitaminlərlə təmin olunub, hərbi hissələrə normadan əlavə dərman preparatları, profilaktiki və dezinfeksiyaedici vasitələr çatdırılıb və ehtiyatı mövcuddur.

Xəstəliklərin profilaktikası məqsədilə həkimlər gücləndirilmiş iş rejiminə keçirilib, müşahidə, aşkarlama, məhdudlaşdırıcı, eləcə də tibbi nəzarət tədbirləri həyata keçirilir. Ezamiyyətdən, məzuniyyətdən qayıdan hərbi qulluqçular, eləcə də hərbi hissələrə daxil olan şəxslər, həmçinin valideynlər nəzarət-buraxılış məntəqələrində tibbi baxışdan keçirilir. Xəstəlik əlaməti aşkar edilən şəxslər hərbi hissə ərazisinə buraxılmır. Bölüklərdə tibbi maarifləndirmə tədbirləri görülür və gündəlik termometriya aparılır.

Çöl-səhra şəraitində keçirilən döyüş hazırlığı məşğələlərinə cəlb olunan şəxsi heyətin uzun müddət sərt hava şəraitində qalmaması üçün poliqonlardakı dərs yerlərində isitmə məntəqələri təşkil edilib. Hava şəraitindən asılı olaraq şəxsi heyətin açıq havada qalması vaxtını azaltmaq göstərişi verilib.

Görülən qabaqlayıcı tədbirlər nəticəsində bu günədək şəxsi heyətin sağlamlığı ilə bağlı heç bir ciddi narahatçılıq qeydə alınmayıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** *Azərbaycan Respublikasında dövlətin gənclərə qayğı və diqqəti. 2 Fevral - Gənclər Günüdür.*

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycan gənclərinin I və II forumlarındakı, eləcə də digər çıxışlarında gənclərə tövsiyələrindən, gənclərin III forumunun materiallarından, dövri mətbuatda dövlət gənclər siyasəti haqqında dərc olunmuş materiallardan, ordu gənclərinin həyatından bəhs edən yazılardan istifadə etməli, bölmədə xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

***Suallar:***

***1. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gəncliyinə qayğısı və inamı.***

***2. Azərbaycan gəncləri dövlətimizin diqqət mərkəzindədir.***

***3. Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur.***

### *Ümummilli lider Heydər Əliyevin Azərbaycan gəncliyinə qayğısı və inamı*

1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etmiş respublikamızda mürəkkəb ictimai-siyasi proseslər cərəyan edir, dövlətçiliyimiz əleyhinə olan, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına çalışan qüvvələr separatçı mövqedən çıxış edir, Ermənistan Silahlı Qüvvələri tərəfindən torpaqlarımız işğal olunurdu. O vaxtkı respublika rəhbərliyinin səriştəsizliyi, ölkəni idarə edə bilməməsi nəticəsində yaranmış gərgin sosial-iqtisadi vəziyyət, ordu quruculuğunda, xarici siyasət sahəsində buraxılmış ciddi nöqsanlar, Dağlıq Qarabağda ermənilərin törətdikləri vəhşiliklər və cəbhədəki uğursuzluqlar Azərbaycan gənclərində dövlətə qarşı inamsızlığın, gələcəyə ümidsizliyin, ruh düşkünlüyünün və bədbin əhval-ruhiyyənin yaranmasına səbəb olurdu.

Dövlət müstəqilliyimizin əldə olunmasında müstəsna rol oynamış, xalq hərəkatının önündə gedərək azadlıq və müstəqillik ideyalarının daşıyıcısı olmuş, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda minlərlə şəhid vermiş gənclərimiz dövlət diqqətindən və qayğısından kənarda qalmışdılar. Məhz belə bir vaxtda gənclərin dövlət maraqlarının strateji təminatçısı olduğunun dərk edilməsi və onlarla yeni məzmunda iş aparılması, dövlət siyasətinin həyata keçirilməsi olduqca vacib idi. Belə bir tarixi şəraitdə Azərbaycan xalqının təkidi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin apardığı uğurlu daxili və xarici siyasət gənclərlə iş sahəsində də dönüş yaradılmasına əlverişli zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən az sonra - 1993-cü ilin sentyabrında gənclərin problemləri ilə dərindən maraqlanaraq onların böyük bir qrupu ilə görüş keçirdi və 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı.

1996-cı il fevralın 2-də ilk dəfə olaraq müstəqil Azərbaycan gənclərinin I forumu keçirildi. Forumda gənclərin vəziyyəti və problemləri ətraflı müzakirə olundu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev forumda proqram xarakterli nitq ilə çıxış edərək müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında konkret vəzifələr qoydu.

1997-ci il fevralın 1-də forumun birinci ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən ümummilli lider Heydər Əliyev tərəfindən 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında fərman imzalanması gənclərimizə göstərilən diqqət və qayğının daha bir parlaq nümunəsi oldu. Həmin vaxtdan etibarən hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

1999-cu il martın 2-3-də gənclərin II forumu keçirildi. Forumun işində iştirak edən ümummilli lider Heydər Əliyev gənclərə diqqət və qayğı göstərilməsinin vacibliyini bir daha vurğuladı, ayrı-ayrı dövlət orqanlarının qarşısında bu sahədə bir sıra vəzifələr qoydu. Forumun qəbul etdiyi sənədlər növbəti mərhələdə gənclərlə işin yeni əsaslar üzərində qurulmasını təmin etdi.

1999-cu il iyulun 29-da ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət gənclər siyasəti haqqında" fərman dövlət gənclər siyasətinin həyata keçirilməsində, keçmiş və bu günümüzlə bağlı tarixi, mənəvi-əxlaqi, mədəni dəyərlərimizin daşıyıcıları olan gənclərə diqqətin artırılmasında dövlət orqanlarının vəzifələrini müəyyənləşdirdi.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2002-ci il tarixli fərmanı ilə uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək üçün gənclər siyasətini tənzimləyən "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Həmin qanuna əsasən, Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi - gənclərin sosial, fiziki, mənəvi və intellektual inkişafına, problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərmək, imkan və bacarıqlarını reallaşdıra bilmək üçün şərait yaratmaqdır.

Qanunla Azərbaycan gənclərinin xalqımızın tarixinə, mədəni irsinə, adət və ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas prinsiplər kimi müəyyənləşdirilmişdir. 2003-cü il oktyabrın 13-də Azərbaycan gənclərinin III forumu keçirildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev səhhəti ilə əlaqədar forumun işində iştirak edə bilməsə də, forum iştirakçılarına məktubla müraciət etdi. Həmin müraciətdəki "Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" sözləri Azərbaycan gəncliyinə verilən ən yüksək qiymətdir.

Dahi rəhbər qeyd edirdi ki, bu gün Azərbaycan Respublikası öz tarixinin şərəfli və mürəkkəb bir dövrünü yaşayır. "Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həll edilməsi, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləsi işlər hələ çoxdur.

XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bugünkü gənclərin üzərinə düşür. İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız".

### *Azərbaycan gəncləri dövlətimizin diqqət mərkəzindədir*

Bu gün Azərbaycan gənclərinin təhsili, gənc kadrların yetişməsi, işlə təmin olunması, sosial problemlərinin həlli üçün məqsədyönlü dövlət siyasəti aparılır. Gənclər Azərbaycanın dövlət quruculuğunda, müstəqilliyimizin qorunmasında fəal iştirak edirlər. Ümummilli lider Heydər Əliyev Azərbaycan gənclərini həmişə yüksək qiymətləndirmişdi. O deyirdi: "Bizim gələcəyimiz gənclərdir. Biz bu gün müstəqil Azərbaycanın bütün sahələrində mümkün olan nailiyyətləri əldə etmək üçün çalışmalıyıq. Ancaq bu işləri görərkən mütləq Azərbaycanın gələcəyi haqqında düşünməliyik və düşünürük".

Azərbaycanda hər bir gəncin orta təhsil alması üçün şərait var. Orta məktəbləri müvəffəqiyyətlə bitirənlər dövlət və özəl təhsil müəssisələrində öz təhsillərini davam etdirib ali təhsil ala bilərlər.

Respublika rəhbərliyinin qayğısı və diqqəti nəticəsində son illər Azərbaycan gəncləri bir sıra nailiyyətlər əldə etmişlər. Elm, təhsil, idman və mədəniyyət sahələrində gənclərin uğurları yüksək qiymətləndirilir. Bu sahələrdə daha çox fərqlənənlərin Prezident təqaüdlərinə və mükafatlarına layiq görülmələri artıq ənənə halını almışdır.

Gənclər dövlətin qanunvericilik və idarəetmə orqanlarında, ictimai təşkilatlarda Azərbaycanın gələcəyi naminə fəal iş aparırlar. Azərbaycan iqtisadiyyatının inkişafı gənclərin işlə təmin olunmasına geniş imkanlar yaradır. Gənclərimiz Azərbaycanı beynəlxalq aləmdə də layiqincə təmsil edirlər. İdmançılarımızın 2000-ci il Sidney, 2004-cü il Afina və 2008-ci ildə Pekin yay Olimpiya oyunlarında qazandıqları uğurlar hər bir azərbaycanlını sevindirmişdir.

Gənclərimizin fiziki sağlamlığına xüsusi qayğı göstərilir. Şəhər və rayonlarımızda Olimpiya idman kompleksləri, eləcə də Bakıda atıcılıq stendi və taekvondo mərkəzi açılaraq gənclərin istifadəsinə verilmişdir. Bütün bunlar Azərbaycan gənclərinə dövlət qayğısının həmişə diqqət mərkəzində olduğuna əyani sübutdur.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edir. Son dövrdə ölkəmizdə idmanın inkişafında, onun maddi-texniki bazasının yaradılmasında əldə olunmuş nailiyyətlər məhz cənab İlham Əliyevin adı ilə bağlıdır.

Ümumiyyətlə, Milli Olimpiya Komitəsi tərəfindən inşa edilmiş Olimpiya idman kompleksləri Azərbaycan gənclərinin tək fiziki hazırlığı üçün deyil, həm də mənəvi tərbiyəsi üçündür. 2002-ci ilin iyununda ümummilli lider Heydər Əliyev Naxçıvanda inşa edilmiş Olimpiya İdman Kompleksinin açılışında çıxış edərkən bu komplekslərin əhəmiyyəti haqqında belə demişdir: "Bu, gənclər üçündür. Bizim millətin gələcəyi üçündür. Gənclərin fiziki hazırlığı üçündür. Gənclərin mənəviyyatı üçündür. Gənclərimiz idmanla, bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər güclü olacaqlar. Ən nəhayət, gənclərimiz, təəssüflər olsun ki, indi müəyyən qədər yayılmış xoşagəlməz vərdişlərə uymayacaqlar".

### *Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur*

Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan Silahlı Qüvvələrimizdə öz Konstitusiya borcunu - Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Ümummilli lider Heydər Əliyevin "Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur" sözləri dövlətin ordu gənclərinə diqqətinin və qayğısının təzahürüdür.

1992-1993-cü illərdə Azərbaycanda yaranmış gərgin ictimai-siyasi vəziyyət Azərbaycan Ordusunun şəxsi heyətinə də mənfi təsirini göstərməyə bilməzdi. Həmin illərdə hakimiyyət uğrunda gedən çəkişmələr, ölkə rəhbərliyinin səriştəsizliyi ucbatından ordu quruculuğunda buraxılan kobud səhvlər, vahid komandanlığın olmaması, cəbhədə döyüş əməliyyatlarının uğursuzluğu ordu gənclərində dövlət və ordu rəhbərliyinə qarşı inamsızlıq yaradır, bir çox hərbi qulluqçuları müxtəlif yollarla hərbi xidmətdən yayınmağa sövq edirdi. Azərbaycan Ordusunda fərarilik az qala kütləvi hala çevrilmişdi. Azərbaycan gənclərinin böyük əksəriyyəti kimi ordu gəncləri də dövlət qayğısından kənarda qalmışdı.

Cənab Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da dönüş yarandı. O cümlədən, ordu gənclərinin problemlərinin həllinə də dövlət qayğısı artdı. İlk növbədə cənab Heydər Əliyev müxtəlif səbəblərdən ordu sıralarını özbaşına tərk etmiş hərbi qulluqçuların bağışlanmasına və öz hərbi hissələrinə qayıdaraq Vətənə vicdanla xidmət etmələrinə şərait yaratdı. Ümummilli lider Heydər Əliyev hərbi hissələrdə şəxsi heyətlə keçirdiyi görüşlər zamanı gənclərin problemləri ilə də maraqlanır və onların həlli üçün konkret göstərişlər verirdi. Bütün bunlar Azərbaycan Ordusunun şəxsi heyətinin dövlət rəhbərliyinə inamını qat-qat artırırdı.

Xalqımızın böyük sərkərdəsi, ümummilli lider Heydər Əliyevin 1993-cü ilin noyabrında xalqımıza, ilk növbədə Azərbaycan oğullarına etdiyi tarixi müraciət, 1994-cü ildə cəbhə xəttində keçirdiyi görüşlər Vətənin hünərvər oğullarını erməni qəsbkarlarına qarşı zəfər döyüşləri aparmağa ruhlandırdı. Xalqımızın qeyrətli övladlarının Azərbaycan gəncliyi üçün qəhrəmanlıq və hünər məktəbinə çevrilmiş rəşadətli və misilsiz döyüş qabiliyyətindən düşmən heyrətə gəldi və işğal olunmuş bir çox ərazilərimiz erməni quldurlarından təmizləndi.

Azərbaycan gənclərinə gündən-günə artan dövlət qayğısı nəticəsində bu gün Silahlı Qüvvələrdə vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər.

Həyatlarını zabit peşəsinə həsr etmək arzusunda olan gənclərimiz üçün C.Naxçıvanski adına Hərbi Lisey, Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Lisey, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə təhsil müasir tələblərə uyğun təşkil olunmuşdur.

Dövlət qayğısı nəticəsində Silahlı Qüvvələrin şəxsi heyətinin bütün təminatları ildən-ilə yaxşılaşdırılır. Şəxsi heyətin sosial problemlərinin həllinə qayğı ön plana çəkilmişdir. Bu gün Azərbaycan Ordusunun qarşısında Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi üçün yüksək döyüş və mənəvi-psixoloji hazırlığa, möhkəm hərbi intizama nail olmaq kimi vacib bir vəzifə durur. Bu vəzifənin yerinə yetirilməsi isə hər bir hərbi qulluqçudan öz vəzifə borcunu vicdanla yerinə yetirməyi tələb edir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

# Sərkərdəmizin hünər dastanı

### Düşüncələrin məkanı

Şəhidlər xiyabanı... Müqəddəs ruhların uyuduğu, həm də zirvədə alovlanan əbədi məşəlin istisindən Vətən sevgisini bizlərə yaşadanların məkanı... 20 Yanvar şəhidlərinin dəfn olunduğu hüznlü anları düşüncələrimə hakim kəsdirən məkan. 1918-ci ildə müstəqil Azərbaycanımız naminə erməni rus hərbi birləşmələrinə qarşı döyüşlərdə şəhid olanların, 1990-cı ildə eyni amalla, eyni istəklə meydanlara çıxan, Sovet hərb maşınlarının tırtılları altında əzilən və Qarabağ torpaqları uğrunda canından keçən Vətənin azadlıqsevər övladlarının, qardaş köməyinə gələn türk əsgər və zabitlərinin, əbədi sərkərdəlik taleyi yaşayan qəhrəman Həzinin ruhunun dolaşdığı müqəddəs məkan... Şəhidlər xiyabanı - And yerimiz, səcdəgahımız!

### Qəhrəmana böyük ehtiram

Yanvarın 24-ü səhər saatlarında Şəhidlər xiyabanı yenə də izdihamlı görünür. Havanın şaxtalı, qar, çovğun olmasına baxmayaraq sinəsi orden, medallarla dolu olan veteranlar, məktəblilər, gənclər, ordunun və ictimaiyyətin nümayəndələri xalqımızın qəhrəman oğlu, yenilməz sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsini yad etməyə tələsirlər.

Ölməz sərkərdənin anadan olmasının 106-cı ili (1910, 22 yanvar) tamam olur. İkinci Dünya müharibəsi cəbhələrində yüksək hərbi bacarıq, qeyri-adi hərbi istedad nümayiş etdirmiş sərkərdənin həlak olduğu vaxtdan isə 71 il (1945, 24 yanvar) ötür. Bununla əlaqədar olaraq Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirlər planını təsdiq edib.

Şəhidlər xiyabanında qəhrəmanın məzarı önündə anım mərasimi təşkil edilib. İki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun abidə-kompleksi ziyarət edildikdən sonra önünə Müdafiə Nazirliyi adından əklil qoyulub, tər qərənfillər düzülərək, xatirəsi böyük ehtiramla yad edilib. Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani xatirə mərasimini açaraq, hər il olduğu kimi, bu il də Müdafiə Nazirliyində əfsanəvi qəhrəmanın anım günlərinin təntənəli qeyd edilməsindən danışaraq bildirdi ki, cəsur tankçılarımız



da məşhur generalımızı dərin ehtiramla xatırlayaraq torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarına söz veriblər.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək xalqımızın qəhrəman oğlunun şərəfli döyüş yolunun gənclərimizə, gələcəyin zabitlərinə, ordumuzun şəxsi heyətinə örnək olduğunu bildirib və hərb elmində döyüş taktikasına gətirdiyi yenilikləri öyrənməklə işğal altında olan torpaqlarımızın azad edilməsi baxımından önəmliliyini vurğulayıb.

Cəsur tankçı generalımızın ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının alınmasında əvəzsiz xidmətləri olan, fədakar tədqiqatçı-jurnalist, "Sərkərdənin taleyi" kitabının müəllifi Musa Bağırov generalın şanlı döyüş yolu ilə bağlı uzun illər apardığı araşdırmalarından danışıb.

Xatirə mərasimində Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-mayor Dadaş Rzayev, Böyük Vətən müharibəsi iştirakçısı istefada olan mayor Daməd Nəbiyev çıxış edərək bildiriblər ki, ölməz sərkərdənin əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayır və yaşayacaq.

Ailə üzvləri adından çıxış edən qəhrəmanın nəvəsi, polis general-mayoru Həzi Aslanov təntənəli anım mərasimləri ənənəsinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd edib. Sonra o, dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə və hər kəsə minnətdarlığını ifadə edib.

### "O, ölümü ilə həyatı qazandı"

Azərbaycanın hərb tarixinə şanlı səhifələr yazan görkəmli generalın anım mərasiminə həsr etdiyim yazımı ümummilli lider Heydər Əliyevin 9 may 1994-cü ildə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində qürur və fəxrlə söylədiyi çıxışından sitatla davam etdirmək istəyirəm: "Həzi Aslanov adına hərbi məktəbin kursantlarına üzümü tutub onlara bu qeyri-adi insana bənzəmələrini arzu edirəm. İstəyirəm ki, siz də hər şeydə - həyatda yüksəlməkdə də, xalqı və Vətəni sevməkdə də, yeri gələrsə, haqq işi uğrunda canından keçməyi bacarmaqda da Həzi Aslanova oxşayasınız.

Həzi Aslanov kimi qəhrəmanların hünəri xalqın qəhrəmanlıq salnaməsinə əbədilik yazılmışdır..."

Faşizm üzərində qələbənin qazanılmasında böyük rolu olan hərb xadimlərindən biri olaraq igid həmyerlimiz Donbas, Moskva, Stalinqrad ətrafında gedən döyüşlərdə özünü ən bacarıqlı komandir kimi göstərib. Süvari hərbi məktəbinin məzunu Həzinin dəmir atın belində faşist işğalçılarına qarşı döyüşlərdə göstərdiyi igidliklərin şöhrəti bütün cəbhələri dolaşıb.

H.Aslanov birinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına 1942-ci il dekabrın 22-də, podpolkovnik rütbəsində Stalinqrad uğrunda göstərdiyi rəşadətli döyüşlərinə görə təltif edilib.

1944-cü ildə məşhur "Baqration" əməliyyatında Belarusiyanın Berezina çayını keçərkən onun komandiri olduğu tank briqadası xüsusi şücaət göstərir və buna görə də o, ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilib. Lakin sənədlər gizlədilir, buna maneçilik törədilir. Haqq-ədalətin bərpasına sərkərdənin ölümündən 47 il sonra, 1991-ci il iyunun 21-də nail olunub.

Hələ sağ ikən göstərdiyi qəhrəmanlıqları tərənnüm olunan ölməz sərkərdə Böyük Qələbəyə 3 ay qalmış düşmən gülləsinə tuş gəlir. Cənazəsi Vətənə gətirilərkən xalq qəhrəman oğlunu böyük izdihamla son mənzilə yola salır. "Ədəbiyyat" qəzetinin 1945-ci il 3 fevral tarixli sayında qəhrəmanın şərəfli ölümünə həsr olunmuş məqalələr dərc edilib. Xalq yazıçısı Mirzə İbrahimovun "Ölməz qəhrəman" yazısında oxuyuruq: "...O, həyatı ilə ölümə qələbə çaldı, ölümü ilə həyatı qazandı. O, gənc qız və oğullarımızın qəlbində, ağsaçlı ana və babalarımızın xatirəsində əbədi yaşayacaqdır...".

Görkəmli alim, tanınmış ədib Mir Cəlal Paşayevin "Böyük vətəndaş" yazısı da qəhrəmanın döyüş yolundan və ölməzliyindən bəhs edir. "...Bütün gənc nəsil Həzinin şanlı həyat yoluna qibtə edir, onun həyatı ilə döyüş tərcümeyi-halı yüz minlərlə Tofiqlərə və Ariflərə ideal olacaqdır. Bu da Həzi üçün böyük xatirədir!.. Həzi böyük vətəndaş kimi öldü. O, böyük vətəndaş kimi də həmişə xalqımızın qəlbində yaşayacaqdır".

Böyük şairimiz Səməd Vurğun "Qəhrəmanın ölümü" şeirini xalqımızın sərkərdə oğluna ithaf edir:

Göydə Günəş şölə saçır,
Nəğmə tutur külək də,
Yerdə insan nəfəs alır,
Qəhrəmana eşq deyə.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# "Azərbaycan Ordusu"nda hansı mövzuları oxumaq istərdiniz?

## Cəbhə xəttində "Dəyirmi masa"dan qeydlər

***Bu yaxınlarda əməkdaşlarımız cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin ön xətdəki bölmələrindən birində döyüşçülərlə görüş keçiriblər. Görüşdə "Azərbaycan Ordusu" qəzetinin baş redaktor müavini polkovnik-leytenant Arif Pənahov əsgərləri salamlayaraq deyib:***

- Sizlərlə xidmət yerinizdə görüşməkdən həmişə şad oluruq. Biz fəxr edirik ki, torpaqlarımızı sizin kimi igid, cəsur oğullar qoruyur. Hər biriniz düşmənə göz dağısınız. Allah sizi qorusun. Sizlərin mənəvi-psixoloji vəziyyətinizin yüksək olduğunu görmək bizim üçün ilham mənbəyidir. Və biz də istəyirik ki, sizlərin maraq dairəsini əhatə edən yazılarla görüşünüzə gələk. Döyüşçülərimizin fikirlərini bilmək bizim üçün daim vacibdir. Qəzetdə hansı səpkili yazıları görmək istəyirsiniz? Hansı təklifləriniz varsa, bildirin, sizi dinləyək.

Sonra bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini leytenant Natiq Hüseynov "Azərbaycan Ordusu" qəzetinin əməkdaşlarını döyüşçülər adından salamladı. Zabit və əsgərlərin fikirlərinə, istəklərinə önəm verdiklərinə və bu görüşün təşkilinə görə redaksiyanın rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

- "Azərbaycan Ordusu" qəzetini müntəzəm oxuyuruq. Həm komandir heyəti, həm də əsgərlərimiz məqalələrinizi maraqla oxuyur, ölkəmizdə və dünyada baş verən xəbərləri izləyirlər. İdman sahəsində olan yeniliklərdən, idmançılarımızın dünya arenalarında qazandığı nailiyyətlərdən doğma qəzetimiz vasitəsilə xəbər tuturuq. Vətənpərvərlik mövzusunda dərc olunan yazılar əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəlməsində böyük rol oynayır. Digər məqalələr də əsgərlərin dünyagörüşlərini artırır. Tarixi mövzuda olan yazıları həvəslə oxuyuruq. Azərbaycan generalları Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin, Cəmşid



Naxçıvanskinin və başqalarının mənalı həyat və fəaliyyətindən bəhs edən yazıları daim maraqla izləyirik. Başqa tarixi şəxsiyyətlərimizdən, generallarımızdan da yazmağınızı xahiş edirəm.

Əməkdaşımız hərbi müxbir mayor Vahid Məhərrəmov da öz növbəsində oxucularımızı salamladı.

- Əziz əsgərlər, sizlər ordunun döyünən ürəyisiniz, - dedi hərbi müxbir. - Xidmətinizdə məsuliyyətli, mərd və mübariz olun. Vətəni yaxşı qoruyun. Vətənin əsgəri olmaq şərəfli bir işdir. Bu xidmətdə sizə uğurlar arzulayıram. Xidmətinizi elə başa vurun ki, valideynlərinizin yanına alnıaçıq, başıuca qayıdasınız və orduda keçən günlərinizi həmişə xoş hisslərlə xatırlayasınız.

Birinci olaraq əsgərlər adından Göyçay rayonundan hərbi xidmətə çağırılmış Nurəddin Qarayev sözə başlayır.

- Mənim idmana böyük marağım var. Asudə vaxtlarımda qəzetdən idman xəbərlərini izləyirəm. "Əsgər tribunası"nda silahdaşlarımın məktublarını və "Nümunəvi xidmət" rubrikası ilə təlim və məşğələlərdə fərqlənən döyüş yoldaşlarım haqqında oxuyuram. Onlar kimi layiqli xidmət etməyə çalışıram. Azərbaycan əsgəri adına layiq olmaq üçün əlimdən gələni edirəm.

Növbəti çıxışçı isə Milli Qəhrəman Mübariz İbrahimovun həmyerlisi əsgər Dilqəm Səfərlidir.

- Asudə vaxtlarımızda "Azərbaycan Ordusu" qəzetini oxuyuruq. Bizi səngərdə salamlayan doğma qəzetimizin əməkdaşları ilə görüşdən məmnunam. Çox vaxt müasir silah və texnikalar haqqında yazıları izləyirəm. Hamımızın sevə-sevə oxuduğu bölmələrdən biri də "Ordu və cəmiyyət" bölməsində olan yazılardır. Xalqımızın bizə olan güvəncini, inamını, xoş sözlərini oxuduqca əhval-ruhiyyəmiz daha da yüksəlir. Bu fikirləri bizə çatdıran müxbirlərə çox sağ olun deyirəm.

Əsgər Rəhim Əliyev də fikirlərini bölüşür:

- Cənab polkovnik-leytenant və cənab mayor, yazılarınızla yanaşı, görüşə gəlib mənəvi dəstək olduğunuz üçün sizə və qəzetin hazırlanmasında əməyi olan bütün kollektivə təşəkkürümü bildirirəm. Ön xətdən olan reportajları maraqla izləyirəm. Döyüş yoldaşlarımızın düşüncələrini oxumaq da ürəyimcədir. Yaxşı olardı ki, "Həkim məsləhəti" rubrikasında yazılara da yer ayırasınız. Bu səpkili yazıların mütəmadi olmağını arzu edirəm.

Görüşün sonunda polkovnik-leytenant Arif Pənahov Qarabağ torpaqlarından "Qələbə" reportajının hazırlanacağı günə az qaldığını bildirərək əsgər və zabitlərə öz maraqlı təkliflərini bölüşdüklərinə görə minnətdarlığını bildirdi və hər kəsə xidmətində uğurlar arzuladı.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

*Həkim məsləhəti*

# Qripdən necə qorunmalı?

### Qrip nədir?

Qrip - tənəffüs yollarının kəskin, yoluxucu xəstəliyidir. Xəstəliyi qrip virusları törədir. Bu viruslar üzərində "tikanlar" olan kürə formasındadır. "Tikanlar" virusa hüceyrələrə daxil olması üçün şərait yaradır. Hüceyrəyə daxil olmuş virus çox sürətlə çoxalır. Onlar bir hüceyrəni dağıdaraq kənara çıxır və qonşu hüceyrələrə keçirlər. Beləliklə, bu viruslar gün ərzində milyonlarla hüceyrəyə yoluxaraq tənəffüs yollarının (burundan kiçik bronxlara qədər) selikli qişasını zədələyir və insanı ciddi xəstələndirir.

Xəstəlik ilin soyuq mövsümlərində (payızdan yazadək), ən çox da qış fəslində yayılır. Qriplə xəstələnən şəxs ilk əlamətlərin yarandığı vaxtdan sonrakı yeddi gün müddətində ətrafdakılar üçün yoluxma mənbəyi hesab edilir.

Qripin əlamətləri - bədən hərarətinin yüksəlməsi, üşütmə-titrətmə, baş ağrıları, ümumi zəiflik, iştahasızlıq, asqırma, boğazda qıcıqlanma, öskürmə, ürəkbulanma, qusma, ishal.

Xəstəlik ətrafdakılara hava-damcı və məişət ünsiyyəti ilə ötürülür.

### Şəxsi heyəti qripdən necə qorumaq olar?

- şəxsi heyətin geyiminə və açıq havada gəzməsinə nəzarət artırılmalıdır; yaşayış otaqlarının, o cümlədən əsgər yataqxanalarının havası tez-tez dəyişdirilməli, döşəməsi yaş əski ilə silinməlidir;
- mədəni-kütləvi tədbirlərin, toplanışların keçirilməsi məhdudlaşdırılmalıdır; qrip əlamətləri olan kənar şəxslərin əsgərlərlə görüşünə icazə verilməməlidir; valideynlərlə görüş yerlərində mütəmadi olaraq profilaktik dezinfeksiya tədbirləri aparılmalıdır;
- qrip əlamətləri olan zabitlər, gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, mülki şəxslər hərbi hissələrin nəzarət-buraxılış məntəqəsindən birbaşa tibb məntəqələrinə yönəldilməlidirlər; hərbi qulluqçular dərhal təcrid edilməli, onlar hətta xəstəliyin yüngül formalarında belə xidmətə buraxılmamalı və xidmətdən müvəqqəti azad olunmalıdırlar;
- hərbi qulluqçuların məzuniyyətləri məhdudlaşdırılmalıdır; ezamiyyət və məzuniyyətdən qayıdanlar həmin gün tibbi müayinədən keçirilməlidirlər;
- bölüklərdə səhər baxışları və axşam yoxlamaları zamanı şəxsi heyətin bədən temperaturu gündəlik ölçülməli, qızdırması, ümumi zəifliyi, halsızlığı, öskürəyi olan hərbi qulluqçular aşkar edilərək izolyasiya olunmalıdırlar;
- qidanın vitaminləşdirilməsi, C vitamini ilə zəngin məhsulların, xüsusən də tərkibində təbii antiseptiklər - fitonsidlər olan qidaların (soğanın, sarımsağın), mütəmadi olaraq çiy şəkildə istifadəsi təmin edilməlidir;
- şəxsi heyət arasında qripin yoluxma yolları və bu xəstəliyin profilaktikasına aid tibbi maarifləndirmə aparılmalı, müxtəlif əyani vasitələrdən (plakatlar, posterlər, bukletlər və s.) istifadə olunmalıdır.

### Hərbi və mülki qulluqçudan nə tələb olunur?

- isti geyinin, təmiz havada çox gəzin, iş otağınızın havasını tez-tez dəyişin;
- qriplə xəstələndikdə ilk növbədə özünüz-özünüzü müalicə etməyə çalışmayın, həkimə müraciət edin;
- ətrafdakılardan təcrid olunun, yataq rejiminə keçin, həkimin təyin etdiyi dərmanlardan başqa çoxlu maye qəbul edin;
- müalicə axıra çatmamış, xəstəlik əlamətləri tam keçməmiş çölə çıxmayın;
- asqırarkən və ya öskürərkən burnunuzu və ağzınızı əl dəsmalı ilə bağlayın;
- ətrafınızdakı insanlara 70 sm-dən yaxın durmayın;
- əllərinizi sabunla tez-tez yuyun;
- idmanla məşğul olun, bədəninizi möhkəmləndirin.

*Yadınızda saxlayın, sizin və ətrafınızdakıların xəstələnməsi Silahlı Qüvvələrin döyüş qabiliyyətinə təsir edir!*

**Müdafiə Nazirliyi**
**Tibb Baş İdarəsi**

*Əsgərə məktub*

# Möhkəm ol, mətin ol, Azərbaycan əsgəri!



Hər biriniz düşmənə göz dağısınız. Ürəyində Vətən sevgisi olanlara, köksü torpaqlarımızı azad etmək istəyiylə döyünən Azərbaycan əsgərinə salam olsun!

Səngərdə, döyüş növbəsində dayanan əsgər, sən tək deyilsən, yanında döyüş yoldaşların, arxanda qəlbi Vətən eşqi ilə alovlanan Azərbaycan oğulları. Bu gün sən səngərdə keşik çəkərkən, kəndində, el-obanda, sənin böyüyüb-başa çatdığın Azərbaycanda oğullar böyüyür. Böyüyür ki, döyüşdə sənin silahdaşın olsun. Səndən əvvəl əsgəri xidmətlərini bitirənlər də var. Onlar da səninlədi. Hər kəs sənin kimi "İrəli!" əmrini gözləyir. Möhkəm ol, mətin ol. Qələbə bizimlədir. Vətən torpağını anası bilən hər kəsin bir amalı, hər kəsin bir qisası var. Amalımız da torpaqlarımızı azad etməkdi, qisasımız da.

***Vətən məni yetişdirib,***
***bu ellərə yolladı***
***Bu torpağa qurban deyib,***
***Allaha ismarladı***
***Boş oturma, çalış, vuruş,***
***xidmət eylə Vətənə***
***Südüm sənə halal olmaz,***
***sən baş əysən düşmənə.***

Hər bir əsgərin dilində əzbərdi bu misralar. Sən də bu misralarda deyilənlərə həyat fəlsəfən kimi əməl et. Səni yetişdirən torpağın tələbidir bu.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, sülhün tərəfdarıyıq. Sülh danışıqları baş tutmasa torpaqlarımızı müharibə yolu ilə azad edəcəyik.

Canını, qanını Vətən uğrunda verməkdən çəkinməyən siz əsgərlər torpaq uğrunda şəhid olmağa hazırsınız, - bilirik. Mən əsgər, sən əsgər, o əsgər torpaqlarımızı azad et, əmri alan zaman qarşımızda kimsə dura bilməz! Nə ermənilər, nə də onun havadarları...

Döyüş postlarından birində Vətəni müdafiə edən, əli tətikdə gözü nişangahda olan əsgər Seymur İbrahimovun dediyi sözləri unuda bilmirəm.

"Sözüm erməni dünyaya gətirən, erməni analarınadır. Çəkin övladlarınızı qarşımızdan. Çünki hücum əmri verilərsə, daş üstündə daş, baş üstündə baş qoymayacağıq. Erməni anası, gözü yaşlı qalmaq istəmirsənsə, övladını çək qarşımdan!.." Hər birimiz üçün ən uca zirvədi şəhidlik. Hücuma keçmək üçün Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyirik. Türk dünyasının böyük sərkərdəsi Mustafa Kamal Atatürkün 1918-ci ildə Çanaqqala savaşı zamanı dediyi "Mən sizə hücuma keçməyi yox, ölməyi əmr edirəm!" kəlmələrini xatırlayıram. Bu kəlmələr əsgərlərin ruhunu kükrətmişdi, və buna görə də Türkiyə hərb tarixinin ən gözəl zəfərlərindən birini qazanmışdı.

Prezident İlham Əliyev çıxışlarının birində "Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, Azərbaycan bayrağı Şuşada, Xankəndidə, Dağlıq Qarabağda dalğalanacaqdır" sözlərindən ilham alaraq siz də hərb tariximizdə şanlı zəfərə imza atacaqsınız!..

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# "Sağlam bədəndə sağlam ruh olar"

"N" hərbi hissəsinin idman şəhərciyi yarış meydanını xatırladır. Geniş ərazidə yerləşdirilmiş müxtəlif idman qurğuları diqqətimi çəkir. Burada artıq səhər saatlarından şəxsi heyətin fiziki hazırlıq məşğələsi başlayıb. Onlar verilən tapşırıqları məharətlə, yorulmadan yerinə yetirir, cəld, çevik hərəkətlərlə idman vərdişlərinə yiyələnirlər. Öyrənirəm ki, fiziki hazırlıq məşğələsini kapitan Vüsal Novruzov aparır. Şəxsi heyətin fiziki hazırlığını artırmaq üçün peşəkarların, bacarıqlı zabitlərin bu xidmətə cəlb edilməsi vacibdir.

Kapitan dedi ki, fiziki hazırlığı məqbul olmayan, yetərli idman vərdişlərini mənimsəməyən əsgər təlim meydanında döyüş tapşırıqlarını yerinə yetirən zaman bir sıra çətinliklərlə qarşılaşmalı olur. "Ümumiyyətlə, fiziki cəhətdən möhkəm olan əsgər yüksək döyüş hazırlığına malikdir. Şəxsi heyət daim fiziki hazırlıqlarını artırmaqla məşğuldur. Əsgərlər məşğələ prosesində tələb olunan normativləri yerinə yetirməyə çalışır, turnikdə dartınaraq əzələlərini möhkəmləndirirlər. "Sağlam bədəndə, sağlam ruh olar" və "İdman sağlamlığın rəhnidir" kimi devizlər də təsadüfi səslənməyib", - deyir zabit.

Əsgərlərin idman qurğularında cəld, çevik hərəkətlərini yaxından izləmək üçün onlara yaxınlaşıram. Özünü təqdim edən əsgər Asim Əliyev Bakı şəhəri Nəsimi rayonundan hərbi xidmətə çağırıldığını deyir. O, ali təhsillidir, mühəndis ixtisasına yiyələnib. Özü də peşəkar idmançıdır. Əlbəyaxa döyüş, boks üzrə ustalığa namizəddir. Regionlararası turnirlərdə Azərbaycanımızı təmsil edib. Rusiya Federasiyasında 2 dəfə birinciliklərin qalibi olub. Asim dedi ki, bölüyümüzdə idmançı uşaqlar çoxdur.



- Turnikdə, paralel qollarda məşq edir, özümüzü təlimlərə hazırlayırıq, - deyir əsgər.

Xaliq Salmanovun ata-babası əslən Laçın rayonundandır. Bərdə rayonunda məskunlaşdıqlarını bildirir. Xaliq də Asim kimi peşəkar idmançıdır. Karate, qaydasız döyüş üzrə ikiqat Azərbaycan çempionudur.

Əsgər Rəşad Mikayılov da yeniyetmə yaşlarından cüdo ilə məşğuldur. Bakıda ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunan idman yarışmasında 3-cü yeri qazandığını bildirən R.Mikayılov məşğələlərdə yüksək nəticələr əldə etdiyindən danışdı.

Bacarıqlı idmançılar öz vərdişlərini əsgər yoldaşlarına da həvəslə aşılayırlar.

Unutmaq olmaz ki, fiziki hazırlığı və döyüş ruhu yüksək olan şəxsi heyətin qələbə əzmi də güclü olur.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 73
Nüsxə 4700